INTERNATIONAL MONETARY FUND EXTERNAL RELATIONS DEPARTMENT

Mətbuat üçün məlumat No. 12/164
TƏXİRƏSALINMADAN DƏRC EDİLMƏLİDİR
May 9, 2012

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, Kolumbiya Dairəsi,
ABŞ 20431

BVF-in Azərbaycana səfər etmiş missiyasının işinin yekunlarına dair Bəyanat

2012-ci il 24 aprel-2 may tarixində Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası hökumət siyasətini, Azərbaycan iqtisadiyyatının perspektivlərini və ilkin olaraq oktyabr ayına planlaşdırılan 2012-ci il üzrə IV Maddə Məsləhətləşmələri missiyası üçün müfaviq məsələləri müzakirə etmək üçün Bakıya səfər etmişdir. BVF əməkdaşları yüksək dövlət rəsmiləri və qeyri-hökumət qurumlarının nümayəndələri ilə görüşlər keçirmişdir.

Səfərin yekununda, Azərbaycan üzrə missiyanın rəhbəri cənab Nadim İlahi bu gün Bakıda aşağıdakı bəyanatı vermişdir:

"Yaxın müddət üçün iqtisadi perspektivlər bütövlükdə müsbətdir. Karbohidrogen sektorunda hasilatın həcminin artacagı, böyük ehtimalla, gözlənilməsə də, 2012 -ci ildə qeyri-neft iqtisadiyyatının 6 faiz artacağı proqnozlaşdırılır. Qlobal ərzaq qiymətlərinə uyğun olaraq son zamanlar səngiyən inflyasiya ilin sonuna 5 faizə çata bilər."

"Ehtiyatlı büdcə-vergi siyasəti yaxın müddətdə maktoiqtisadi sabitliyin qorunub saxlanması üçün həlledici rol oynayacaqdır. Əsaslı xərcləri məhdudlaşdırmaqla qeyri-neft büdcə kəsirinin azaldılması 2012-ci ildə inflyasiya səviyyəsini səngitməyə kömək edərdi."

"Azərbaycanda karbohidrogen resursları hasilatının artım tempinin dayanması orta müddətli dövrdə büdcə davamlılığını təmin etmək üçün büdcənin konsolidasiya yolunun üzərində çevik işləməyin zəruri olduğunu vurğulayır. BVF, pensiya islahatları da daxil olmaqla, bu istiqamətdə texniki yardım göstərməyə hazırdır".

"Əgər tələblə bağlı təzyiqlər yaranarsa, pul-kredit siyasətini sərtləşdirmək zəruri ola bilər. Bununla belə, mövcud pul siyasəti alətləri məhduddur və gücləndirilməlidir. Missiya tövsiyə edir ki, inflyasiya səviyyəsindəki tərəddüdləri azaltmaq üçün yeni pul-kredit siyasəti çərçivəsinin formalaşdırılması istiqamətdə səylər gücləndirilsin; missiya dövlət orqanlarını borc və kapital bazarlarının dərinləşdirilməsi, habelə ictimaiyyətlə əlaqələr sahəsində siyasətin təkmilləşdirilməsi istiqamətlərində daha qısa zamanda irəliləyiş etməyə çağırır. BVF bu istiqamətdə texniki yardımını davam etdirəcəkdir."

“Hökumətin bu yaxınlarda göstərdiyi son dəstəyi Azərbaycan Beynəlxalq Bankının (ABB) kapital və likvidlik mövqelərini dəstəkləsə də, daha hərtərəfli yanaşma tələb olunur. Missiya dövlət orqanlarını qısa zamanda və şəffaf şəkildə bankın ölçüsünü kiçiltməyə və özəlləşdirməyə çağırır. 2012-ci ilin ikinci yarısında BVF və Dünya Bankının Maliyyə Sabitliyinin Qiymətləndirilməsi üzrə Birgə Proqramının yenilənməsi çərçivəsində maliyyə sistemi qiymətləndiriləcəkdir”.

“Missiya rəsmi orqanlara açıq və konstruktiv müzakirələrə görə təşəkkür edir.”